

# Dünyanın rəngli məscidləri

*Məscid memarlığı dünya mədəniyyətinin parlaq səhifələrindən biridir. Məscidləri inşa edən memarlar dini qayda-qanunlara riayət etməklə yanaşı, eyni zamanda onların tərtibatında milli ənənələri, zamanın ruhunu, fərdi yaradıcılıq fantaziyalarını əks etdirməyə çalışırlar. Əsl sənət inciləri də belə yaranır. Dünyanın ən gözəl rəngli məscidləri kimi...*





## Nəsir əl-Mülk məscidi

Nəsir əl-Mülk məscidi İranın ən gözəl memarlıq abidələrindəndir.

Bu əsrarəngiz məscid 1888-ci ildə Şiraz şəhərində inşa olunub. Məscid 1795-ci ildən 1925-ci illərədək İranda hökmranlıq etmiş Qacar sülaləsinə mənsub olan Mirzə Həsən Əli Nəsir əl-Mülkün əmri ilə tikilib.

Məscidin içi rəngarəng mozaikalarla bəzədilib, adi pəncərələrin əvəzinə isə vitrajlar (rəngli şüşələrdən düzəlmiş naxışlar) salınıb. Günün vaxtından asılı olaraq günəş şüaları bu vitrajların üzərinə düşəndə kaleydoskopik effekt yaranır.

Məscidin təkcə divarları deyil, həm də çoxsaylı tağları və tavanları da naxışlarla bəzədilib. Parlaq çəhrayı rəngdə olan döşəməni ilin soyuq fəsillərində xalçalarla döşəyirlər. Məscidin qeyri-rəsmi adı "çəhrayı məscid" olsa da, onun rəng palitrası daha zəngindir.

Nəsir əl-Mülk məscidinin gözəlliyi təkcə möminləri deyil, çoxsaylı turistləri, sənətsevərləri də cəlb edir. Buranı ziyarət edənlər məscidin maraqlı interyeri ilə yanaşı, binanın yaranma tarixindən bəhs edən muzeyi, həyətində isə naxışlı çarhovuzu da görə bilərlər.



## Putra məscidi

1997-1999-cu illərdə tikilən Putra məscidi Malaziyanın Kuala Lumpur şəhərində yerləşir. Bağdaddakı Şeyx Ömər və Kasablankadakı Kral Həsən məscidlərinin dizaynı bu məscidin zahiri görünüşünə böyük təsir edib. Putra məscidinin inşasında ona bənzərsiz açıq-çəhrayı çalar verən əsas material çəhrayı qranit olub.

İbadət zalındakı 12 sütun həm də diametri 36 metr olan baş günbəzi saxlayır. 10 min ziyarətçi qəbul edə bilən məscidin xüsusi mənzərəli mühiti olan daxili həyəti də var.





## Dimaukom məscidi

Bu məscid 2014-cü ildə Ramazan ayının əvvəllərində Filippinin Datu Saudi Ampatuan bələdiyyəsində mer Samsodin Dimaukomun təşəbbüsü ilə inşa olunub. Onun sözlərinə görə, məscidin binasının çəhrayı rəngdə olması sülhün, sevginin və qarşılıqlı anlaşmanın rəmzidir. Filippin əhalisinin 5 %-i islam dininə etiqad edir.

